Füzulişünaslıq: tarixilik və poetika

Azərbaycanda konkret bir sənətkarın tərcümeyi-halının və yaradıcılığının, yaxud ədəbi abidələrin tədqiqi əsasında "şünaslıq", məsələn, qorqudşünaslıq və ya axundovşünaslıq səviyyəsində ayrıca elmi-tədqiqat əsəri yazılmamışdır. İndiyədək bu istiqamətdə yalnız bəzən yazıçının həyatı və irsinin tədqiqi tarixləri yazılıb yarımfəsil kimi kitablara daxil edilmişdir. İcmal xarakterli belə yarımfəsillərdə isə xronoloji ardıcıllıqla sənətkarları araşdıran tədqiqatçılar və onların əsərləri barəsində müəyyən informasiyaların verilməsi ilə kifayətlənilmişdir. Bu baxımdan yanaşdıqda filologiya elmləri namizədi, dosent Gülşən Əliyeva-Kəngərlinin "Çaşıoğlu" nəşriyyatında çapdan çıxmış "Azərbaycan füzulişünaslığı" monoqrafiyası ədəbiyyatşünaslıq elmində mövcud olan boşluğu aradan qaldıran birinci monoqrafik tədqiqat kimi mühüm əhəmiyyət kəsb edir. Bu, Gülşən Əliyeva-Kəngərlinin gərgin zəhmətinin, ciddi axtarışlarının, aydın elmi təfəkkürünün nəticəsi əsasında meydana çıxan dəyərli füzulişünaslıqnamədir. Təqdim olunan monoqrafiya həm də Azərbaycanda ədəbiyyat haqqında elmin tarixində şünaslıq səviyyəsində yaranmış ilk sanballı və ümumiləşmiş əsərdir. Söz mülkünün sultanı olan Məhəmməd Füzuli irsinin və qüdrətli sənətkara həsr olunan əsərlərin əsas ana xətlərini, zəruri problemlərini əks etdirən "Azərbaycan füzulişünaslığı" monoqrafiyası geniş mənada füzulişünaslığa qiymətli əlavədir.

Müəllifin özünün də haqlı olaraq qeyd etdiyi kimi, "bu kitab Füzuli *sözü* haqqında Füzulinin özündən üzü bəri — XXI əsrə qədər deyilənlərə dəyər verir. "Azərbaycan Füzulişünaslığı" Füzuli haqqında Azərbaycan düşüncəsinin, Füzulinin özündən başlanan 500 illik təkamül tarixinin mərhələləri haqqında ilk monoqrafiyadır". Bu, ciddi və əhəmiyyətli əsər bütövlükdə Azərbaycan klassik ədəbiyyatının nəzəri cəhətdən öyrənilməsinə də sanballı elmi töhfədir. Təqdim olunan orijinal tədqiqat işi Məhəmməd Füzuli haqqında yeni, dəyərli və ağır çəkili elmi sözdür. Nəhayət, "Azərbaycan füzulişünaslığı" monoqrafiyası milli ədəbiyyatşünaslıq elminin demək olar ki, ayrı-ayrı mərhələlərindəki inkişaf səviyyəsini, kəmiyyət və keyfiyyət göstəricilərini əks etdirən qiymətli əsərdir. Azərbaycan füzulişünaslığının köklü problemlərinə işıq salan bu sanballı tədqiqat ədəbiyyatşünaslıq elmini də zənginləşdirir.

"Azərbaycan füzulişünaslığı" monoqrafiyasında hər şeydən qabaq Məhəmməd Füzulinin türk-müsəlman dünyası ədəbiyyatındakı yeri müəyyən edilir. Əsərdə ustad sənətkarın tarixi mövqeyi barədə ifadə olunmuş qənaətlər Füzuli haqqında Gülşən Əliyeva-Kəngərliyə məxsus dəqiq və obyektiv elmi təyinatlar kimi səslənir: "Füzuli... türk ləfzini qəzəli dünyada tanıdan ərəb və fars dilləri səviyyəsinə qaldırdı. Qəzəldə ərəb şairi Əbü Nüvas, fars şairi Hafiz Şirazi səviyyəsində zirvə yaratdı... Fəqət burada bir fərq var: Əbu Nüvas yalnız ərəbcə, Hafiz yalnız farsca, Füzuli isə həm ərəbcə, həm farsca, həm də türkcə yazdı. Onlar hərəsi bir ədəbiyyatın, Füzuli isə üç ədəbiyyatın dahisi oldu".

Monoqrafiyada ilk dəfə olaraq füzulişünaslığın mahiyyəti və sərhədləri aydınlaşdırılmışdır. Müəllif haqlı olaraq füzulişünaslığı "Azərbaycan ədəbiyyatşünaslığının bətnində 450 ildən artıq ömür sürmüş əsas istiqamətlərdən biri", "Füzulinin sağlığından bu yana ədəbiyyatşünaslığın yol yoldaşı" kimi görür. Hətta bəzən bir qədər də maksimalist mövqedən yanaşılaraq füzulişünaslıq ümumiyyətlə ədəbiyyatşünaslıq elminin üzvi tərkib hissəsi səviyyəsində dəyərləndirilir. Füzulişünaslığa qüdrətli söz ustadının zəngin bədii irsinin poetik dərkini elmi-nəzəri cəhətdən açıb ümumiləşdirən elm kimi baxan Gülşən Əliyeva-Kəngərli öz tədqiqatında Füzuliyə dair Türkiyə, Rusiya, Orta Asiya və Avropada yaranmış əsərlərlə tipoloji paralellər, əhəmiyyətli müqayisələr aparmaqla Füzuli haqqındakı Azərbaycan elminin ümumən dünya füzulişünaslığının tərkib hissələrindən biri olması faktını diqtə edir. Və yaxşı cəhətdir ki, həmin məsuliyyəti düzgün qiymətləndirən müəllif Füzuli irsinə dair elmi baxışlarında və şünaslıq yönümlü araşdırmalarında problemə qlobal səviyyədə yanaşa bilir. Bu mənada bir çox məqamlarda monoqrafiyada irəli sürülən nəzəri mülahizələr, səslənən elmi ideyalar, çıxarılan nəticələr dünya füzulişünaslığında Azərbaycan elminin sözü, yekun qənaəti səviyyəsində ümumiləşir. Müəllifin tədqiqat işinin əsas məqsədinin məhz "dünya füzulişünaslığı kontekstində, onun aparıcı istiqamətlərindən biri olaraq Azərbaycan füzulişünaslığının mükəmməl struktura malik elmi sistem olduğunu sübut etməkdən" ibarət olduğunu qəbul etməsi monoqrafiyada problemə geniş müstəvidə yanaşıldığını bəyan edir.

Azərbaycan ədəbiyyatşünaslıq elmi tarixində füzulişunaslığın inkişaf mərhələlərinin müəyyən olunması məsələsi Gülşən Əliyeva-Kəngərliyə məxsusdur. İlk dəfə olaraq o, Azərbaycan füzulişünaslığının mənşə, təşəkkül ərəfəsi, təşəkkül dövrü, tarixilik və poetik dərketmə kimi mərhələlərini müəyyənləşdirmişdir. Təklif olunan təsnifat elmi-tarixi və metodoloji cəhətdən lazımınca əsaslandırıldığı üçün real və inandırıcı görünür. Və əslində təqdim edilmiş təsnifat Füzulinin tədqiqi tarixi məsələsini şünaslıq səviyyəsinə qaldıran möhkəm dayaqlardır. Gülşən Əliyeva-Kəngərlinin "Azərbaycan füzulişünaslığı" monoqrafiyası həmin etibarlı təməl və bünövrə üzərində ucaldılmış ciddi tədqiqat işindən ibarətdir. Əsərdə hər tarixi mərhələnin müəyyən olunmuş səciyyəvi problemlərinə tarixilik və poetika baxımından dəyər və qiymət verilməsi şünaslıq formatında qəbul olunmuş elmi yanaşmanın konkret nəzəri sistemini ortaya qoymağa imkan yaradır. Beləliklə, tədqiqat obyektinə milli istiqlal məfkurəsi işığında yanaşan Gülşən Əliyeva-Kəngərli yekun olaraq Füzuli sənətini ümummilli düşüncələr səviyyəsində dəyərdən keçirib sistemləşdirmiş, füzulişünaslıq haqqında təlim kimi formalaşdırmışdır.

Azərbaycan ədəbiyyatşünaslığında M.Füzulinin elmə önəm verən görkəmli şair olduğundan dönə-dönə bəhs etmişdir. Gülşən Əliyeva-Kəngərli isə Füzulidən sənət nəzəriyyəçisi kimi söz açır. Monoqrafiyada məhz alim Füzulinin özü, dövrü, mühiti, sənəti və ümumiyyətlə, sənət haqqındakı fikirləri Azərbaycan füzulişünaslığünün mənşəyi kimi dəyərləndirilir. İlk dəfə olaraq füzulişünaslığın mənşəyini Füzulinin özündən başlaması mülahizəsi irəli sürülür: "Hər bir elm kimi füzulişünaslıq da onun obyekti və predmeti — M.Füzuli və onun irsi meydana çıxandan sonra təməl tapmağa başlayıb. Nizami olmadan nizamişünaslıq, Şekspir olmadan şekspirşünaslıq, Nəvai olmadan nəvaişünaslıq mümkün olmadığı kimi, dahi qəlb şairi M.Füzuli olmadan da nə dünya, ...nə də Azərbaycan füzulişünaslığı mümkün olmazdı". Müəllifin obyektiv qənaətlərinə görə "alim Füzulinin tədqiqat, təhlil və təsvir predmetlərindən birincisi şair Füzulinin yaradıcılığıdır". Monoqrafiyada şair Füzulinin mühiti və irsi alim Füzulinin araşdırmalarında məsələsi geniş yer tutur, ustad sənətkarın söz-sənət konsepsiyası sistemli şəkildə nəzərə çatdırılır. Füzulinin mühitə tarixi-estetik problem kimi yanaşması, İstanbula, yaxud Hindistana gedib-getməməsi, "məskənim çün Kərbəladır" mətləbinin daşıdığı mənalar ətrafında aparılan araşdırmalar nəticə etibarilə şairin poeziyasının yarandığı mühiti elmi şəkildə canlandırmağa xidmət edir. "Bir dövrdəyəm ki, nəzm olub xar" misrasındakı pissimist ruhu da Füzulinin özünün bədii *sözün* nüfuzunun qaldırılması, bərpa etməsi vasitəsilə əritməyə səy göstərdiyi aydınlaşdırılır. Füzulişünaslıqda Füzulinin şairin söz-sənət konsepsiyasının meyarı kimi dəyərləndirilmiş "zira ki, elmsiz şeir əsası yox divar olur və əsassız şair qayətdə bietibar olur" misralarında ifadə olunan tezislərdən fərqli olaraq Gülşən Əliyeva-Kəngərli həmin məqsədlə Füzuli təxəllüsünün qəbul edilməsindən açar səviyyəsində bəhs edir. Və inandırır ki, Füzulinin dünyagörüşünü, şairin qüdrətli bir sənətkar kimi tutumunun, mahiyyətinin tam mənası Füzuli kəlməsində təcəlla etmişdir. Bu fikrin təsdiqi kimi ustadın farsca "Divan"ının dibaçəsindən gətirdiyi aşağıdakı dəlillər danılmaz isbata çevrilir: "Bu bənzərliyi ortadan qaldırmaq üçün Füzuli təxəllüsünü aldım və təxəllüsümün himayəsinə sığındım... Əvvəla mən özümü ruzigarın yeganəsi görmək istəyirəm. Bunu təxəllüsüm təmin etdi. Fərdiyyətimin əməyi ortaqlıqdan qurtardı. İkincisi, mən bütün ülüm və fününu özündə toplamış bir insan olmaq üçün çalışıram. Bunu ifadə edən bir təxəllüs tapdım. Çünki "füzuli" lüğətdə "ülum" və "fünun" kimi "fəzl"in cəmidir. Füzulinin xalq arasında başqa mənası ədəbə müxalif deməkdir. Bundan da ədəbə müxalif nə ola bilər ki, yüksək qədirli adamlarla çox az görüşmüşəm, mərhəmətli padşahlara və sultanlara yaxın olmamışam. Səyahət etmədiyim halda həmişə əqli mübahisələrdə həkimlərin (filosofların) müxtəlif hökmlərinə etiraz etmişəm". Buna görə də "füzuli" şairlikdən çox alimlik mənasını ifadə edir" qənaətində olan müəllifin "şair Füzulinin yaradıcılığına yalnız alim Füzulinin təfəkkür işığında daxil olmaq mümkündür" fikri söz sənətinin bahadırının zəngin irsinin dərk olunmasının "açarı" kimi təqdim olunur. Gülşən Əliyeva-Kəngərlinin bu rakursdan yanaşaraq Füzulinin ədəbi-nəzəri və estetik görüşlərində şairin şəxsiyyəti, yaradıcılıq laboratoriyasının özünəməxsusluğu, sənətkarın sənətinin "fərdiləşməyə, tənhalaşmağa, təkləşməyə doğru yönəlmiş bir proses"dən ibarət olması, *söz* fəlsəfəsi, bədii yalan düşüncəsi, janrlara münasibəti, dili və üslubu barədəki elmi mülahizələri seçib ayırmış, təhlil edib ümumiləşdirmişdir. "Alim Füzulinin şair Füzuli haqqında söylədikləri"nə əsaslanaraq birinci dəfə bu monoqrafiyada ustad şairdən "ilk füzulişünas" kimi bəhs olunmuşdur. Geniş təhlillərdən sonra müəllifin özünəinamının ifadəsi olan "Azərbaycan füzulişünaslığının banisi məhz M.Füzulidir və füzulişünaslığın mənşəyini Füzulidən başlanaraq nəzəri-tarixi baxımdan obyektivdir" qənaəti həqiqətən yeni olduğu qədər də real gerçəkliyin ifadəsi səviyyəsində ümumiləşir. Fikrimizcə, "Azərbaycan füzulişünaslığının mənşəyi" yarımfəsli elmi yeniliyi etibarilə Füzuli haqqında yazılanlardan yazan Gülşən Əliyeva-Kəngərlinin özünün də istedadlı bir füzulişünas olduğunu təsdiqləyir. Məhəmməd Füzuli haqqındakı çoxsaylı tədqiqatlar sırasında füzulişünas Füzuliyə dair elmin, sistemli təlimin yaradıcısı "Azərbaycan füzulişünaslığı" monoqrafiyasının müəllifidir. "Azərbaycan füzulişünaslığının mənşəyi" çoxəsrlik və Azərbaycan füzulişünaslığının çoxcildlik külliyyatının yeni fəsli, qiymətli əlavəsidir.

"Azərbaycan füzulişünaslığı" monoqrafiyasında füzulişünaslığın təzkirəçilik epoxası, yaxud təşəkkül ərəfəsi mərhələsinin səciyyəvi xüsusiyyətlərindən təzkirələrdən və müəlliflərindən geniş söz açılmışdır. Tədqiqatçı Füzulinin müasirlərinin təzkirələrindən tutmuş XIX əsr təzkirələrinə, XX əsrin iyirminci illərinədək yaranmış təzkirə, risalə və müntəxabatlara qədər zəngin bir ədəbi-elmi təəssüratı diqqətlə öyrənmiş, təhlil edib dəyərləndirmişdir. Müəllif Füzuli ilə eyni dövrdə yaşayıb-yaratmış Qəstəmonlı Lətifi və Əhdi Bağdadinin təzkirələrində daha çox şairin özündən, əsərlərindən gəlmə mülahizələrin yer aldığını qeyd etmişdir. Şah İsmayıl Xətainin oğlu Sam Mirzənin "Töhfeyi Sami", Lütfəlibəy Azərin "Atəşkədə", Məhəmmədəli Tərbiyətin "Daneşməndane Azərbaycan", Mirzə Tahir Nəsrabadinin "Təzkireyi-Nəsrabadi", "Şah Abbasın kitabdarı olmuş" Sadiq bəy Sadiqi Əfşarın "Məcməül Xəvas", Seyid Əzim Şirvaninin "Təzkirətüş şüəra" təzkirələrinə, habelə Mirzə Şəfi Vazehin "Dərbəndnamə" müntəxabatına qədər çoxsaylı təzkirələrdə Füzulinin tutduğu yeri, onun sənətinin və ədəbi mövqeyinin qiymətləndirilməsini göz önünə gətirən Kəngərli geniş mənada bu janrda yazılan əsərlərə dair təhlilləri ilə füzulişünaslığın təzkirəşünaslıq bazasını yarada bilmişdir. Təzkirələrdə M.Füzuliyə dair bioqrafik amilin üstünlük təşkil etməsi nəzərə alınmaqla füzulişünaslığın təşəkkül ərəfəsi dövrünün bioqrafik mərhələ adlandırılmasının məqsədəuyğunluğu əsaslandırılmışdır. Əsərdə Mirzə Fətəli Axundzadənin Füzuli sənətinə baxışları indiyədək bu məsələyə dair deyilənlərdən fərqli şəkildə olub, realist ədəbiyyatın mənafeyi bucağından deyil, füzulişünaslıq baxımından dəyərləndirilərək Füzulinin özünün müdafiəsinə doğru istiqamətləndirilmişdir.

G.Ə.Kəngərli XX əsrin 20-30-cu illərini Azərbaycan füzulişünaslığının təşəkkül dövrü kimi səciyyələndirir. Yalnız bioqrafik məlumatları və müntəxabatlıq elementlərini özündə cəmləşdirən "feodalizm dövrünün ədəbiyyat tarixlərindən" — təzkirələrdən fərqli olaraq təşəkkül mərhələsində meydana çıxan tədqiqatlarda elmiliyin, nisbətən əhatəli təhlilin, ədəbiyyat tarixçiliyi yaratmaq səylərinin üstünlüyünün müşahidə olunması M.Füzulinin də həmin səviyyədə öyrənilməsinə rəvac verən amillər kimi nəzərə çarpdırılır. Bu mərhələnin təhlili prosesində haqlı olaraq bütövlükdə klassik irsə, o cümlədən Füzulinin sənətinə və şəxsiyyətinə milli nihilizm və proletkultçuluq cərəyanlarının işığında nəzər salınması faktı da xatırladılmışdır. Əslində 37-ci ilin repressiyaları ilə "yarımçıq qalmış" mərhələ kimi səciyyələndirilən bu dövrün çoxsaylı tədqiqatçılarının əsərləri təhlildən keçirilsə də, F.Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" və Mir Cəlalın "Füzulinin poetik xüsusiyyətləri" kitabları "təşəkkül mərhələsi"nin zirvəsi hesab edilmişdir. Bu qənaət də doğrudur ki, bu mərhələdə ədəbiyyatşünaslıq öz estetik meyarlarını sınaqdan keçirməli olmuşdur". Haqlı olaraq deyildiyi kimi, "Mir Cəlalın Füzulinin poetik xüsusiyyətləri" adlı monoqrafiyası həm Azərbaycan füzulişünaslığının çoxəsrlik təşəkkül mərhələsini yekunlaşdıran, həm də füzulişünaslıqda poetik dərk mərhələsinin əsasını qoyan dəyərli bir əsər kimi" bu mərhələni yekunlaşdırır.

"Azərbaycan füzulişünaslığında tarixilik" adlandırılan ikinci fəsildə 1958-1968-ci illəri əhatə edən qısa, lakin "ən möhtəşəm mərhələ" sayılan xüsusi bir dövrün elmi təsərrüfatı təhlil edilib dəyərləndirilmişdir. "Füzuli irsinə tarixi yanaşma" prinsipi əsasında tədqiq olunan füzulişünaslıq irsinə elmi qiymət vermək vəzifəsi yetərincə yerinə yetirilmişdir. G.Ə.Kəngərli tamamilə haqlı deyir ki, "Azərbaycan füzulişünaslığının ikinci mərhələsi tarixi epoxa kimi sosioloji xarakter daşısa da, elmi epoxa kimi tarixi səciyyə daşıyır". Azərbaycan füzulişünaslığının tarixilik mərhələsini elmi-nəzəri cəhətdən orijinal bucaqdan, həm də mükəmməl səviyyədə dəyərləndirən G.Ə.Kəngərli əslində füzulişünaslığın tarixi salnaməsinə öz tədqiqatının da elmi-tarixi fakt kimi daxil olmasına zəmanət alır. Müəllif füzulişünaslığın tarixilik mərhələsinin tarixi icmalını yox, elmi-fəlsəfi və nəzəri dərki məsələsini konseptual şəkildə işləyib hazırlamış və həll etmişdir. Burada "Azərbaycan füzulişünaslığının atası" Həmid Araslının, "Azərbaycan ədəbiyyatşünaslığının yetişdirdiyi ən qüdrətli nəzəriyyəçi-alim" Məmməd Cəfər Cəfərovun, "ədəbiyyat tarixçisi" Əli Əjdər Seidzadənin, "görkəmli füzulişünas" Mirzağa Quluzadənin, "əruzşünas alim" Əkrəm Cəfərin, "o zaman gənc tədqiqatçı olan" Azadə Rüstəmovanın, "görkəmli dilçi" Əbdüləzəl Dəmirçizadənin və başqalarının monoqrafik tədqiqatları və məqalələri əsasında M.Füzuliyə tarixilik prinsipi əsasında yanaşmanın elmi nəticələri göz önünə gətirilmişdir. Azərbaycan füzulişünaslığının elmi sistemə salınması, Füzuli haqqında tədqiqatların məqaləçilikdən monoqrafik səviyyəyə qaldırılması, dahi qəlb şairinə ümumtürk, yaxud türk-müsəlman müstəvisində olan yanaşma ilə bir sırada ona münasibətin Azərbaycan meyarlarının müəyyən olunması tarixilik mərhələsinin səciyyəvi xüsusiyyətləri kimi əsaslandırılmışdır. Alimin təhlillərində nəzəri səviyyə, polemikasında obyektivlik və elmi etika, müqayisələrində dərinlik, əhatəlilik, nəticələrində ciddi ümumiləşdirmələr vardır. Tarixilik dövrünün konkret mərhələ səviyyəsində müəyyən olunması, prinsiplərinin dəqiqləşdirilməsi G.Ə.Kəngərlinin də füzulişünaslığı elmi sistemə salmaq səylərinin uğurlu nəticəsi kimi ümumiləşdirilə bilər.

G.Ə.Kəngərlinin "Azərbaycan füzulişünaslığı" monoqrafiyası "tədqiqat tarixi" şəklində deyil, füzulişünaslığın inkişaf yoluna və problemlərinə konseptual yanaşmalar əsasında yazılmışdır. Bu mənada kitabın "Füzuli poetikası" haqqında konsepsiyalar" fəsli əsər boyu izlənilən konseptual yanaşmaları tamamlayır. 1986-1996-cı illər kimi konkretləşən, Füzuli irsinin nəzəri-poetik dərki mərhələsi adlandırılan bu üçüncü mərhələ əslində Azərbaycan füzulişünaslıq elminin yekun mərhələsi kimi təqdim olunur: "M.Füzuli irsinin nəzəri-poetik dərki mərhələsi füzulişünaslığın vahid nəzəri-metodoloji prinsiplərə malik elmi təhlil və tədqiq, ümumiləşdirmə imkanlarını əks etdirən qlobal bir mərhələdir. Onu Füzuli poetik sehrinə daxildən baxış mərhələsi kimi də səciyyələndirmək olar".

Monoqrafiyada XX əsrin 70-ci illəri Azərbaycan füzulişünaslığının durğunluq dövrü kimi səciyyələndirilir. Görkəmli şair və tədqiqatçı Ayaz Vəfalının "Füzuli öyrədir" monoqrafiyası durğunluq dövrünün sükut buzunu sındıran, tarixilik mərhələsi ilə nəzəri-poetik dərk dövrü arasındakı boşluğu dolduran, bu mərhələlər arasında körpü funksiyasını həyata keçirən qiymətli elmi tədqiqat işi səviyyəsində dəyərləndirilir. "Bu, Azərbaycan füzulişünaslığında M.Füzuli sənətinin poetik qaynaqlarına, dəqiq desək, folklorla əlaqələrinə həsr olunmuş ilk monoqrafik tədqiqat əsəridir. Müəllif mümkün qədər sosioloji təhlildən uzaq olmaqla folklorun poetik janrlarının Füzuli poetikasına gətirdiyi yenilikləri, Füzulinin xalq ədəbiyyatına etdiyi əlavələri müəyyənləşdirir".

Monoqrafiyada birbaşa füzulişünaslığın nəzəri-poetik dərk mərhələsini təmsil edən "klassik irsimizin görkəmli araşdırıcısı" Əliyar Səfərlinin, "əsas ixtisası dil tarixi, sonralar türkologiya olan" görkəmli alim Tofiq Hacıyevin, "ömrünü M.Füzuli irsinin öyrənilməsinə" həsr etmiş Vəcihə Feyzullayevanın, muğam ustası "alim-müğənni" Vəli Məmmədovun, füzulişünas Lalə Əlizadənin, "Füzuli sənətini bütöv bir poetik sistem kimi tədqiq edən" Sabir Əliyevin, və başqalarının poetika istiqamətində çap olunmuş əsərlərinin elmi dəyəri, füzulişünaslıqdakı yeri obyektiv mövqedən qiymətləndirilmişdir. Müəllifin yekun qənaətləri, çıxardığı nəticələr də elmi və obyektivdir: "Azərbaycan füzulişünaslığının gücü və tarixi dəyəri bunda idi ki, Şərqin bu üç böyük dilində möhtəşəm əsərlər yazmış Füzulini bütövlükdə dərk və təhlil etdi".

"Şünaslıq" formatında olan tədqiqatlarda əsas məsələlərdən biri tədqiqata cəlb edilən görkəmli şünaslardan heç birinin əsərlərinin təsirinə qapılmamaqdan, müəlliflərin titulundan, mövqeyindən asılı olmayaraq, onların baxışlarına və qənaətlərinə elmi yanaşma üsulu əsasında qiymət verməkdən ibarətdir. "Azərbaycan füzulişünaslığı" əsərində 500 illik böyük bir dövrdə meydana çıxmış çoxsaylı ədəbiyyat əsərlərinin dərin, hərtərəfli və əsaslı təhlili verilmişdir. Monoqrafiyada tədqiqatçılardan kiməsə pərəstiş meyli nəzərə çarpmır. Bu cəhət Gülşən Əliyeva-Kəngərlinin araşdırmalarında obyektivliyin təmin edilməsinin əsas meyarlarındandır. Bununla belə, əsərdə tədqiqatçılara deyil, tədqiqatların obyekti olan Məhəmməd Füzuliyə yanaşmada qeyri-adi münasibətin, pərəstiş əlamətlərinin, bəzi məqamlarda sənətkarı ideallaşdırma meyllərinin olduğu sezilir. Hətta məsələnin bu cəhətinin müəyyən edilmiş dolğun-əhatəli problemin həlli baxımından fayda verdiyi də müşahidə olunur. Çünki Füzulinin şəxsiyyətinə və ölməz sənətinə füzuliyanə münasibət ayrı-ayrı tədqiqatçıların dahi sənətkarın ətrafındakı araşdırmalarını maksimalist mövqedən, yüksək tələbkarlıq səviyyəsində təhlildən keçirilməsini, güzəştsiz yanaşmanı şərtləndirmişdir. Lakin kim bilir, bəlkə də tədqiqatçının Füzuli sevdasının cövhərində şairin mənsub olduğu Bayat boyu ilə müəllifin nəsil şəcərəsinə aid qədim türk tayfalarından olan Kəngərlilərin qan qohumluğu dayanır. Bütün hallarda əsərin mərkəzi siması olan Məhəmməd Füzuliyə araşdırıcı fəhmi və zəhməti ilə bir sırada həm də içdən gələn isti münasibətlə yanaşma təqdim edilən əsərin keyfiyyət göstəricisinin daha da artmasını şərtləndirib.

Bundan başqa, "şünaslıq" səviyyəsində olan tədqiqat əsərlərində nəticə olaraq haqqında söz açılan görkəmli sənətkarın elmi dərki, onun irsinin cəmiyyət tərəfindən lazımi dərəcədə qavranılmasına köməklik göstərmək, bələdçi olmaq missiyası da dayanır. Bu ciddi vəzifə "şünaslıq" istiqamətini seçən şünasın özünün təkcə ayrı-ayrı ədəbiyyatşünasların əsərlərini deyil, bütövlükdə sənətkarı dərindən dərk etdiyi hallarda daha yüksək səviyyədə həyata keçirilə bilir. Monoqrafiyada əsər boyu Gülşən Əliyeva-Kəngərlinin həm Məhəmməd Füzuli irsini, həm də füzulişünasların əsərlərini arzuolunan miqyasda dərk və şərh etmək imkanları aydın şəkildə görünür. Buna görədir ki, o, təkcə füzulişünaslar haqqında yox, Məhəmməd Füzulinin özü barəsində də orijinal, elmi baxımdan yeni və əhəmiyyətli mülahizələr irəli sürə bilmişdir.

Nəhayət, qeyd etmək lazımdır ki, filologiya elmləri namizədi, dosent Gülşən Əliyeva-Kəngərlinin "Azərbaycan füzulişünaslığı" monoqrafiyası ilə böyük bir tarixi epoxanın şünaslığına elmi-nəzəri cəhətdən yekun vurulur. Haqqında söhbət gedən monoqrafik tədqiqat Azərbaycan füzulişünaslığının keçdiyi çoxəsrlik yolun elmi-ədəbi təcrübəsini ümumiləşdirən, yekunlaşdıran sanballı və qiymətli elmi mənbədir. Şübhəsiz ki, mövcud füzulişünaslığın yekun akt kimi meydana çıxan bu əsərlə həm də Məhəmməd Füzuli haqqında araşdırmaların yeni elmi erası başlanır. "Azərbaycan füzulişünaslığı" monoqrafiyası bundan sonrakı dövr üçün füzulişünaslıq elminin inkişaf prinsiplərinin yollarını və meyllərini də təqdim edir. Bu mənada "Azərbaycan füzulişünaslığı" əsəri füzulişünaslıq elmimizin sadəcə salnaməsi deyildir, həm də yol göstərəni və etibarlı bələdçisi kimi də mühüm əhəmiyyətə malikdir.

İsa HƏBİBBƏYLİ
Naxçıvan Dövlət Universitetinin rektoru, akademik